ədalət 2019.- 16-17 avqust.- S.14.

***Səbuhi Rəfibəyli***



## *MƏNLƏ SƏNİN ARANDA*

Həsrət bizi yorar hey,
Xəyyalara dalar hey,
Bir cüt baxış qalar hey,
Mənlə sənin aranda.

Könlün inciyər,küsər,
Qəlb odlayar qəlb üzər...
İki danla yaş düşər,
Mənlə sənin aranda.

Genişlik çox, qəfəs dar,
Yenə istək, həvəs var,
Bir udumluq nəfəs var,
Mənlə sənin aranda.

## *BİTİRƏR*

Ürəyimiz atəşlənər,odlanar,
Günü - gündən əhvalımız korlanar.
Biləmmərik kim günahkar adlanar,
Əsəb yeyər canımızı bitirər.

Əskik olmaz giley güzar qəm - qüssə,
Bu həyatdan haqlı küsər kim küssə.
Xəstə düşər neçə - neçə can-cüssə,
Haqsızlıqlar düz-dünyanı götürər.

Üzə cıxar çox ləkələr , yamaqlar,
Geri düşər öndə gedən qabaqlar.
Çox başlara bəla olar tamahlar,
Yediyini burunlardan gətirər.

Açılacaq hər səhəri , hər danı,
Yaşadacaq ümidlərlə insanı.
Ağıllısı qazansa da dünyanı,
Ağılsızı əldən verər,itirər.

Çoxlarının əməlləri görünməz,
Dərdi - səri paylaşılmaz ,bölünməz.
Həyatının mənası nə, bilinməz,
Günlərini hədər yerə ötürər.

## *YAĞIŞ ÇAĞLAYAR...*

Gizli yanar,alışar,
Oğrun-oğrun baxışar.
Üzdə gülər,danışar,
Hərə bir dərd dalında.

Doğrular qarmalanar,
Əyrilər damğalanar,
Namərdlər daldalanar,
Gizlənər mərd dalında.

Neçə iz ,neçə naxış,
Neçə mülayim baxış.
Gözlərdən axan yağış,
Çağlayar sərt dalında.

## *MƏNİ*

Əzizlər ,yaxınlar düşməsin dərdə,
Dar gündə köməkdir uzanan əl də,
Hər kəsə gərəyəm xeyirdə,şərdə,
Sınayan hər zaman sınasın məni.

Salar kəməndinə ,salar toruna,
Əyrilər sədd çəkər düzün yoluna,
Əllər toxunmasın tikan koluna,
Dalasa, gül kolu dalasın məni.

Talanıb toplanmış varım olmasın,
Sevgisiz şöhrətim - şanım olmasın,
Nahaqqın yanında adım olmasın,
Qınayan haqq üçün ,qınasın məni.

Təki bir fəqirin ürəyi gülsün,
Arzusu , istəyi , diləyi , gülsün,
İnsafı olanlar sədəqə versin,
Fırladıb başına dolasın məni.